BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2010

# ERMƏNİSTANLA AZƏRBAYCAN ARASINDA ATƏŞKƏSİN ƏLDƏ OLUNMASININ TARİXİ ƏHƏMİYYƏTİ

**SABİR ŞAHTAXTI (Hacıyev)**
***Bakı Dövlət Universiteti***
***Shahtahi@mail.ru***

*Kəssə hər kəs tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*
***Hüseyn CAVİD***

*Məqalədə 1988-ci ilin əvvəllərindən Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilməyə başlayan işğalçılıq siyasəti səbəbindən iki qonşu dövlət arasında başlanan müharibənin aradan qaldırılması istiqamətində prezident Heydər Əliyevin göstərdiyi sülh cəhdlərinin tarixi əhəmiyyətindən bəhs edilir. Müəllif çoxsaylı faktlara söykənərək əsaslandırır ki, 1994-cü il mayın 12-də Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar əldə olunmuş atəşkəs bütövlükdə Cənubi Qafqazda uzunmüddətli sülhün əldə olunmasının bünövrəsini qoymuşdur.*

*Heydər Əliyev atəşkəsə nail olmaqla, Azərbaycanı qarşılaşdığı girdabdan xilas etmiş və ölkənin təhlükəsizliyinə nail olmuşdur. Tarixdə ilk dəfə olaraq bu münaqişənin formulu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırılmış və məsələnin əsl mahiyyətinin dünya birliyinə olduğu kimi çatdırılmasına başlanılmışdır.*

1993-cü ilin yayında ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini məhv olmaqdan, ölkəni parçalanmaqdan, Azərbaycan xalqını tarixi bir rəzalət təhlükəsindən xilas etdi. 1988-ci ildən 1993-cü ilin yayınadək ölkədə mövcud olmuş ictimayi-siyasi, iqtisadi və hərbi proseslər Azərbaycanı girdaba doğru sürətlə yuvarlamışdı. Son dərəcə çətin və ağır şəraitdə hakimiyyət yükünü çiyinlərinə götürən Heydər Əliyevin qısa bir zaman kəsiyində qazandığı uğur və nailiyyətlərin əsasını təcavüzkar Ermənistanla atəşkəsin əldə edilməsi təşkil edir. Əlbəttə ki, xarici havadarlarının birbaşa himayəsi ilə Azərbaycan torpaqlarını sürətlə işğal etməkdə olan Ermənistanı atəşkəsə məcbur etmək qətiyyən asan məsələ deyildir. Lakin Heydər Əliyev böyük müdrikliklə buna nail ola bildi və bu nailiyyət bütövlükdə Qafqazda uzunmüddətli sülh və sabitliyin yaranmasının, eləcə də region dövlətlərinin kompleks iqtisadi inkişafının əsasını müəyən etdi.

Minsk qrupuna daxil olan ölkələrin 1994-cü il mayın 4-5-də MDB parlamentlərarası məclisinin təşəbbüsü ilə Bişkekdə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına dair görüş keçirildi. Bu görüşdə Azərbaycan tərəfi yekun protokolunu imzalamadı. Çünki imzalamaq üçün təklif olunan yekun sənəddə Azərbaycanın mənafeinə zidd bir sıra müddəalar var idi. Sənəddə tutulmuş ərazilərdən qoşunların çıxarılmasının zəruriliyi bildirilir, lakin bu qoşunların kimə mənsub olması

göstərilmirdi. "Tutulmuş ərazilər" termini münaqişədəki real siyasi şəraitə uyğun gəlmirdi. Burada söhbət işğal olunmuş Azərbaycan ərazilərindən getməli idi. Həmçinin Dağlıq Qarabağın erməni icmasına sənədi imzalamaq hüququ verilsə də, Azərbaycan icmasına bu hüquq verilmirdi. Bütün bunlarla bərabər Azərbaycan dövləti mürəkkəb tarixi situasiyanı nəzərə alaraq 1994-ci ilin mayın 9-da Bakıda atəşkəs haqqında yekun protokolunu imzaladı. Azərbaycanın ardınca mayın 10-da Yerevanda, mayın 11-də isə Xankəndində (Stepanakertdə) də Yekun protokolu imzalandı (1, 82).

Beləliklə, 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs rəsmi qüvvəyə mindi və hazırkı vaxta qədər (2010-cu il-S.H) davam etməkdədir (2). Atəşkəsin əldə edilməsi istiqamətində Heydər Əliyevin etdiyi cəhdlər, göstərdiyi çoxşaxəli fəaliyyəti dünya tarixində görünməmiş sülh missiyasıdır. Ulu öndər bu işin uğurlu sonluqla başa çatması naminə, böyük siyasi məharətlə dünyanın bütün aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların imkanlarından istifadə etmişdir. Xüsusilə də, Rusiya Federasiyasının Ermənistana təsir imkanlarını yetərincə düzgün qiymətləndirən Heydər Əliyev atəşkəsin əldə edilməsində şimal qonşumuzun vasitəçilik missiyasından məharətlə bəhrələnmişdir. Heydər Əliyev atəşkəsdən sonra Rusiyanın regiondakı proseslərdə rolunu və Ermənistana təsir imkanlarını belə qiymətləndirirdi: "Rusiya öz imkanlarından istifadə etsə idi, məsələni artıq həll etmək, böyük sülh sazişi imzalamaq mümkün olardı. Bununla belə, biz ümidimizi itirmirik. Böyük iş görülmüşdür, atəşkəsə nail olunub və bundan tam sülh əldə etmək üçün istifadə edilir. Dünyanın iri dövlətləri başa düşürlər ki, Azərbaycanın hüquqlarını tapdalamaq olmaz, biz torpaqlarımızın bir qarışını da heç kimə verməyəcəyik, süverenliyimizin və ərazi bütövlüyümüzün pozulması ilə razılaşmayacağıq" (3, 54). Xüsusilə qeyd etmək lazımdır ki, 1994-cü il aprelin 15-də Azərbaycan və Ermənistan prezidentləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiya Federasiyasının vasitəçiliyini tədqirəlayiq hal kimi qiymətləndirmişlər.

Qeyd etmək lazımdır ki atəşkəsə gedən yol çox çətin və mürəkəb olmuşdu. Belə ki, Azərbaycanla Ermənistan arasında atəşkəsin əldə edilməsinə hələ ilk dəfə 1991-ci ildə cəhd edilmişdir. Lakin bu istiqamətdə göstərilən səylər uğursuzluqla nəticələnmişdir. Daha dəqiq desək, Azərbaycan tərəfinin ağır itkiləri ilə nəticələnən atəşkəs cəhdləri təcavüzkar tərəfin işğalçılıq siyasətinin yeni əraziləri əhatə etməsinin gerçəkləşməsinə mühüm və münbit şərait yaratmışdır. 1991-ci il sentyabrın 23-də Rusiyanın Jeleznovodsk şəhərində Rusiya prezidenti B.Yeltsin və Qazaxıstan prezidenti N.Nazarbayevin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri A.Mütəllibov və L.Ter-Petrosyan arasında keçirilən görüşdə münaqişənin sülh yolu ilə nizamlanmasına dair bəyannamə imzalanmışdır. Bu görüşdə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının nümayəndələri də iştirak etmişlər. Təəssüf ki, ertəsi gün erməni silahlıları tərəfindən Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı genişmiqyaslı hücumları başlanmışdır (4, 246). Qeyd olunan bəyannamənin imzalanmasından təxminən iki ay sonra 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin səmasında içərisində Azərbaycanın dövlət və hökumət rəhbərlərinin olduğu "Mi-8" vertolyotu erməni terrorçuları tərəfindən vurulmuşdur (4, 247). "1991-ci ilin may ayında Ermənistan prezidenti Levon Ter-Petrosyanla Yaqub Məmmədov (Yaqub Məmmədov Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edirdi-S.H.) arasında 8 maddədən ibarət sülh razılaşması imzalanandan bir

neçə saat sonra ermənilər Şuşanı işğal etdilər. Bununla ermənilər bir daha subut etdilər ki, heç bir insani, əxlaqi və beynəlxalq-hüquq normalarına riayət etmirlər" (5, 114). Beləliklə, mövcud münaqişə müharibəyə çevrildi və imzalanan sülh sazişləri əhəmiyyətini itirdi. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev sözügedən atəşkəs cəhdlərini "Azadlıq" radiosuna şərh edərək göstərilən cəhdlərin müsbət nəticə verəcəyinə inanmırdı. Heydər Əliyev fikirlərini belə əsaslandırmışdı ki, hər bir sənədin işləməsi üçün konkret mexanizm olmalıdır. Lakin yuxarıda sözügedən sənədlərin heç birinin icra mexanizmi müəyyən edilməmişdir.

Ermənilər Azərbaycan türklərinə qarşı kütləvi qırğınlara 1905-ci ildən başlamışlar. O vaxtdan bəri bu münaqişə çoxsaylı rəsmi sənədlərdə, ayrı-ayrı əsərlərdə, qəzet materiallarında "erməni-müsəlman" münaqişəsi (davası) kimi təqdim olunmuşdur. Məmməd Səid Ordubadinin bir sıra əsərlərində bu formula rast gəlinir. Eləcə də həmin faktla Cəfər Cabbarlının "1905-ci ildə" dramında qarşılaşırıq. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin görkəmli diplomatlarından olan Yusif Vəzir Çəmənzəmənlinin bir sıra məqalə və əsərlərində də bəhs edilən ifadəyə rast gəlirik. Əlbəttə ki, bu siyahını uzatmaq da mümkündür. Hətta münaqişənin qeyd olunan adla verilməsi bir sıra xarici müəlliflərin əsərlərində də yazılmışdır. Erməni-milli mənsubiyyət, müsəlmançılıq isə dindir. Qeyd olunan formul ermənilərin mənfur təcavüzkarlığının, işğalçılıq siyasətlərinin tərkib hissəsi kimi uzun illər ictimai fikir dövriyyəsində saxlanılmışdır. Ermənilər bununla uzun illər münaqişə ilə bağlı xristian faktorundan bəhrələnməyə nail olmuşlar (6, 137). Lakin Heydər Əliyev böyük uzaqgörənliklə bu formulu dəyişə bildi. Atəşkəsin məhz Ermənistan-Azərbaycan arasında imzalanması mövcud münaqişənin adının düzgün verilməsinin əsasını qoydu. **Heydər Əliyev:"...reallıqda bu Ermənistan-Azərbaycan müharibəsidir... bu formulu insanların beyninə mən yeritmişəm - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Amma qalanlar nə deyir - Dağlıq Qarabağ münaqişəsi. Çünki hamı hesab edir ki, bu münaqişə iki ölkə arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır " (7,** 216**).**

Ermənistan rəsmiləri bütün hallarda aparılan hərbi əməliyyatlarda Ermənistan tərəfinin iştirak etmədiyini və münaqişənin güya öz müqəddəratlarını həll etmək niyyətində olan Dağlıq Qarabağ erməniləri tərəfindən törədildiyini iddia edirlər. Heydər Əliyev: "Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının Qətnamələrinə, ATƏM-in, Rusiyanın, Qazaxıstanın vasitəçilik səylərinə məhəl qoymayaraq özünün həqiqi rolunu – birbaşa təcavüz edən ölkə rolunu ört-basdır etmək məqsədilə bizi Dağlıq Qarabağ ermənilərini münaqişədə iştirak edən tərəf kimi tanımağa təhrik etməyə çalışır. Həqiqətdə isə Dağlıq Qarabağ bölgəsində yaşayan və elə bir ehtiyatı olmayan 100 mindən çox erməni 7 milyonluq əhalisi olan ölkəyə qarşı genişmiqyaslı hərbi əməliyyatlar apara və onun ərazisinin 20 faizini işğal edə bilməz. Respublikanın Dağlıq Qarabağ bölgəsinin 50 min azərbaycanlı əhalisinin hüquqlarını inkar etməyə cəhd göstərilir. Etnik təmizləmə nəticəsində onlar Şuşa, Xocalı, Xocavənd, Hadrut və Ağdərə rayonlarından tamamilə qovulmuşlar" (3, 67). Əslində, sonda göstərilən fikirlər Ermənistanın özünün də Azərbaycana qarşı təkbaşına müharibə aparmaq iqtidarında olmadığına məntiqli və diplomatik işarə idi. Beləliklə, atəşkəs sənədini hər üç tərəfin imzalaması, ilk növbədə ermənilərin Azərbaycana qarşı növbəti iddialarının əsasızlığını və münaqişənin adının dəqiqləşdirilməsini təmin etdi. Atəşkəslə bağlı

danışıqlara Ermənistan parlamentinin nümayəndə heyətinə parlamentin spikeri B.Araksyan, Azərbaycan parlamentinin nümayəndə heyətinə Milli Məclisin sədr müavini A.Cəlilov, Dağlıq Qarabağ nümayəndə heyətinə isə tanınmamış "Dağlıq Qarabağ Respublikasının parlamentinin spikeri" K.Babuqyan başçılıq edirdi. Bununla da, problem rəsmi sənədlərdə ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi qəbul edildi. Heydər Əliyev: "Mən Ermənistan prezidenti Levon Ter-Petrosiyanla dünən də, bu gün də telefonla danışmağa cəhd göstərdim. Ancaq danışmaq mümkün olmadı. Ona görə də, televiziya vasitəsilə müraciət edirəm. Mən onu və Ermənistanın bütün rəhbərlərini öz xalqları qarşısında məsuliyyətə dəvət edirəm. Elə son döyüşlərdə Ermənistan Silahlı Qüvvələrinin bir neçə yüz əsgəri həlak olub, yaralanıb. Ermənistanın təcavüzkar dairələri, bu müharibəni davam etdirən dairələr həlak olmuş vətəndaşların qarşısında cavabdehdilər. Onlar bu qanı tökürlər, ancaq bunun sonu yoxdur" (3.3). Atəşkəsin əldə edilməsi istiqamətində atılan bütün bu siyasi addımlar Ermənistan rəhbərliyini çıxılmaz vəziyyətə salmışdır. Daim ikili standartlarla təcavüzkar Ermənistanı bu və ya digər formada dəstəkləyən bəzi beynəlxalq təşkilatlar və xarici dövlətlər də Heydər Əliyevin müdrik addımları qarşısında pat vəziyyətində qalmışdılar. Heydər Əliyev müraciətlərindən birində deyirdi: "Mən dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, Birləşmiş Millətlər Təşkilatına, BMT Təlükəsizlik Şurasına, Təhlükəsizlik Şurasının daimi üzvləri Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın, Rusiyanın, Çinin rəhbərlərinə müraciət edirəm və bəyan edirəm ki, onlar Ermənistan Respublikasının təcavüzkarlığının qarşısını almaq üçün təsirli tədbirlər görməlidirlər" (3,69).

Beləliklə, Azərbaycanla Ermənistan arasında əldə olunan atəşkəs aşağıdakı ardıcıl nailiyyətlərin əldə edilməsinin əsasını qoydu:

-mövcud tarixi təcavüz prosesi ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi adlandırıldı;

-münaqişənin əsl mahiyyətinin dünya ictimaiyyətinə olduğu kimi çatdırlması reallığa çevrildi;

-regionda uzunmüddətli sülhün yaranması üçün ciddi zəmin yarandı;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi üçün hüquqi əsaslardan istifadə edilməsinə şərait yarandı;

-Azərbaycan qarşılaşdığı siyasi, iqtisadi, sosial və hərbi böhrandan çıxmaq üçün vaxt qazandı;

-region dövlətlərinin kompleks inkişafı üçün beynəlxalq iqtisadi layihələrin gerçəkləşməsinə tarixi şərait yarandı.

Heydər Əliyev sonrakı illərdə atəşkəsin əldə olunması istiqamətində göstərilən səyləri və sonrakı danışıqlar prosesini belə şərh edirdi:"...1994-cü ildə ATƏT-in Budapeşt sammitində biz vəziyyəti dəyişdik. Yəni bir az qanuna saldıq" (7, 211).

1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında Heydər Əliyevin çevik siyasi manevrləri sayəsində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul edildi və münaqişə bölgəsinə ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi barədə razılıq əldə olundu. "Ermənistan prezidenti L.Ter-Petrosyan isə özünü dünya birliyinə qarşı qoyaraq, xalqların öz müqəddəratını təyin etməsi prinsipini bu münaqişəyə tətbiq etməyə, Dağlıq Qarabağ erməni icmasını münaqişədə iştirak edən tərəf-

lərdən biri kimi qələmə verməyə cəhd göstərirdi" (8, 139). Ümumiyyətlə, Ermənistanın təcavüzkar niyyətləri regionda sülh və sabitliyə ciddi təhlükə olduğu kimi, beynəlxalq təşkilat və birliklərin normal fəaliyyətinə də ciddi əngəllər yaratmışdır. Keçmiş SSRİ-nin süqutundan sonra bünövrəsi qoyulan Müstəqil Dövlətlər Birliyinin formalaşa bilməməsində də Ermənistanın işğalçılıq siyasəti mühüm rol oynamışdır. Ermənistanın özünü Rusiyanın qubernatorluğu kimi aparmasına baxmayaraq bu inkarolunmaz həqiqətdir. Professor Seyfəddin Qəndilov yazırdı ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi səbəbindən MDB kollektiv təhlükəsizlik sistemi formalaşması üzrə Ermənistanla əməkdaşlıqdan imtina etməklə bu sahədə öz fəaliyyətini birlik çərçivəsindən kənarda qurur, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə Qərbi Avropa strukturlarına qoşulmağa dair strateji kursunu bəyan etmişdir. Məlumdur ki, Ermənistandan fərqli olaraq Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına və vətəndaş azadlıqlarına təminat verilir. "Milli azlıqların hüquqlarının qorunması üçün xüsusi təminat tələb olunur. Azərbaycanda belə bir təminat dövlət səviyyəsində verilmişdir. Respublikamızın Konstitusiyasının 5-ci maddəsində göstərilir ki, Azərbaycan xalqının vahidliyi onun dövlətinin təməlini təşkil edir" (9, 186).

Yuzlərlə təkzibolunmaz faktlarla əsaslandırmaq olar ki, əgər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlməsi bir az da gecikmiş olsaydı, onda Azərbaycan üçün daha böyük faciəvi cəbhə Xəzər dənizində açılacaqdı. Azərbaycanın Xəzər dənizindən olan su ərazisinə ediləcək hər hansı bir təcavüz Azərbaycanın dövlət müstəqilliyi üçün daha ciddi təhlükə mənbəyi olaraq qalırdı. Mövzudan uzaqlaşmamaq şərti ilə deyə bilərik ki, məsələyə yuxarıda qeyd olunan konteksdən yanaşdıqda Dağlıq Qarabağ münaqişəsi ilə hələ də həllini tapmayan Xəzər dənizinin hüquqi statusu arasında müəyyən siyasi və hüquqi paralellər aparmaq mümkündür, baxmayaraq ki, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinin açıq qalması Azərbaycanın neft strategiyasını əngəlləyə bilməmişdir. İlham Əliyev: "...Xəzər dənizi ilə bağlı məsələnin (Xəzərin hüquqi statusunun həll edilməməsi - S.H.) həll edilməməsi bizə milyardlarla dollar sərmayə cəlb etməyə mane olmamışdır" (9, 273).

Heydər Əliyev: "1996-cı ilin dekabrında Lissabon sammitində müəyyən irəliləyişlər əmələ gəldi. O vaxta qədər heç bir şey etmək mümkün deyildi. …Lissabon sammitində biz, demək olar ki, ciddi irəliləyişə nail olduq. Yəni nəyə-məlumdur. İlk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağ əhalisinin həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin. …Lissabonda Ermənistan bu layihənin tamamilə əleyhinə çıxdı" (7, 213). Azərbaycan diplomatiyasının Budapeşt və Lissabon Sammitləri arasındakı ikiillik fəaliyyəti ATƏT və onun Minsk qrupuna daxil olan digər üzvlərin də mövqeyini respublikamızın xeyrinə dəyişmişdir. Lissabon sammiti ərəfəsində Minsk qrupunun 11 üzvündən 10-u (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplərə uyğun və Azərbaycanı qane edən həlli layihəsini yekdilliklə qəbul etmişdilər. Bu da, sözsüz ki, Azərbaycan diplomatiyasının iki sammit arasındakı gərgin fəaliyyətinin məntiqi nəticəsi idi (8, 147). Budapeşt sammitindən sonrakı zaman kəsiyində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yönümündə aparılan sülh danışıqlarında Azərbaycan Respublikasının diplomatiyası xüsusi fəallıq nümayş etdirmişdir.

Lakin inkarolunmaz həqiqətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqlarının müsbət nəticə verməsinə maneə olan başlıca səbəblərdən biri dünyadakı mövcud ikili standartlardır. Özünün xarici havadarlarına arxalanan Ermənistan tərəfi aşkar formada ərköyünlük etməklə beynəlxalq hüquq normalarını pozmaqda davam edir. Heydər Əliyev: "Mən bunu açıqca demişəm və Strasburqda çıxış edəndə də dedim. Bütün Avropa Şurasının qarşısında dedim ki, dünyada ikili standartlardan əl çəkmək lazımdır" (7, 222). Heydər Əliyev: "İslam Konfransı Təşkilatı yeganə təşkilatdır ki, biz Ermənistanın Azərbaycana təcavüz erməsi formulunu qətnamələrdə yaza bilirik və bu təcavüzə etiraz edə bilirik" (7, 225). Heydər Əliyev bütün hallarda İslam Konfransı Təşkilatı ilə əlaqələr sürətlə genişləndirilmiş, həm bu təşkilatla, həm də İKT-yə üzv olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq aparılmış, eləcə də Ermənistanın işğalçılıq siyasətinin ifşa olunmasında təşkilatın imkanlarından Azərbaycanın xeyrinə maksimum faydalanmışdır. Təəssüflə bildirmək lazımdır ki, ATƏT həmsədrlərinin Ermeninstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cəhdləri siyasi manupulyasiya çərçivəsindən çıxa bilmədilər. Madrid prinsipləri siyasi gündəmə gətirilənə qədər həmsədrlərin təklifləri əslində Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq qəsd xarakterində olmuşdur.

Nəhayət, Heydər Əliyev böyük uzaqgörənliklə aparılan sülh danışıqları ilə bağlı vəziyyəti Milli Məclisin müzakirəsinə çıxarmaqla məsələni ictimailəşdirdi və bununla da Azərbaycan xalqının Dağlıq Qarabağla bağlı mövqeyini bütün dünyaya nümayiş etdirdi. Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ictimai rəy konteksində" tarixi məqaləsi əhali tərəfindən sonsuz maraqla qarşılandı. Sözügedən məqalədə Milli Məclisdə müzakirə olunan məsələ ətrafında çıxış edən ayrı-ayrı natiqlərin təklif və mövqeləri şərh edilir, real vəziyyətə aydınlıq gətirilirdi. Azərbaycan ictimaiyyətinə bir daha əmin oldu ki, Heydər Əliyev aparılan sülh danışıqlarında Azərbaycanın milli və dövlətçilik maraqlarını tam formada müdafiə edə bilmişdir.

## ƏDƏBİYYAT


1. Bakı Dövlət Universiteti. Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq fakültəsi / Ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendesiyaları” mövzusunda 06-07 may 2010-cu il tarixdə keçirilmiş elmi praktik konfransın materialları. Bakı, 2010, s. 288.
2. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi: Ali məktəblər üçün dərslik, Bakı: Çaşıoğlu, 2008, 670 s.
3. Məlikov R.M.(Ramiz Duyğun) Qalib gələcəkmi cahanda kamal. Bakı: Gənclik, 1998, 125 s.
4. Əliyev V. Azərbaycan tarixi günbəgün. Bakı: Təknur MMC, 2008, 368 s.
5. Əhmədov E. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində Azərbaycan diplomatiyasının fəaliyyəti // Dövlət İdarəçiliyi, Bakı, 2004, N2 (6), s.137-147.
6. Prezident və Ali baş Komandan Heydər Əliyev bəyan etdi: son sözü xalq və Milli Məclis deyəcək. "Yeni Azərbaycan" qəzeti, Bakı, 2001, 24 fevral.
7. Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), Bakı: Elm, 2000, 367 s.
8. Məmmədov H.B. (Hikmət Baboğlu). İnsan hüquqları və azadlıqları (tarixi təkamül, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi). Bakı: Elm, 2006, 241 s.

9. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi. 2006 / Azərbaycan Prezidenti İlham Əliyev "Exo Moskvı" radiosuna müsahibə vermişdir, Bakı: GARİSMA MMC, 2008, 848 s.

## ИСТОРИЧЕСКАЯ ЗНАЧИМОСТЬ ДОСТИЖЕНИЯ ПЕРЕМИРИЯ МЕЖДУ АРМЕНИЕЙ И АЗЕРБАЙДЖАНОМ

**САБИР ШАХТАХТЫ (Гаджиев)**

**РЕЗЮМЕ**

Данная статья посвящена исторической значимости миролюбивых усилий Президента Гейдара Алиева в направлении прекращении войны, начатой в 1988 году по причине очередной захватнической политики Армении против Азербайджана. Автор, опираясь на многочисленные факты, доказывает, что перемирие, достигнутое 12 мая 1994 года между Азербайджаном и Арменией, заложило основу для долгосрочного мира на всем Южном Кавказе. Перемирие, которое было достигнуто Гейдаром Алиевым, позволило Азербайджану избежать "узкого места" и обеспечить безопасность страны. Впервые в истории формула данного конфликта начала называться армяно-азербайджанский, Нагорно-Карабахский конфликт и действительная подоплёка и реалии конфликта были достоверно доведены до мировой общественности.

## THE HISTORICAL IMPORTANCE OF ACHIEVING ARMISTICE BETWEEN ARMENIA AND AZERBAIJAN

**SABIR SHAHTAKHTI (Hagiyev)**

**SUMMARY**

The article devotes to the historical significance of the President Heydar Aliyev's peacemaking efforts to eliminate the war initiated in early 1988 as Armenia's recurrent invasion policy vesrsus Azerbaijan. The author, using the multinumerous facts, proves that the cease-fire between Azerbaijan and Armenia reached on May 12, 1994 laid down a good platform for the long-term peace all around the Caucasus. The cease-fire reached by Heydar Aliyev enabled Azerbaijan to avoid "the bottleneck" and ensure the national security. First in the history the formula of the conflict was named as “Armenian-Azerbaijan Nagorno Karabakh Conflict” and its realistic backgound is being fully highlighted to the global community.